**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**

# S Ə R Ə N C A M

**“Naxçıvan Muxtar Respublikasının Dövlət Su Ehtiyatları Agentliyinin ləğv edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 29 dekabr tarixli 7-VII FR nömrəli Fərmanının icrasının təmin edilməsi barədə**

“Naxçıvan Muxtar Respublikasının Dövlət Su Ehtiyatları Agentliyinin ləğv edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 29 dekabr tarixli 7-VII FR nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə:

1. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının “Naxçıvan Muxtar Respublikasının Dövlət Su Ehtiyatları Agentliyinin ləğv edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 29 dekabr tarixli 7-VII FR nömrəli Fərmanına (bundan sonra - Fərman) uyğunlaşdırılması ilə bağlı təkliflərini bir ay müddətində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti təqdim etsin.

2. Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları on beş gündən gec olmayaraq, Fərmanın icrasını təmin etmək məqsədilə öz səlahiyyətləri daxilində normayaratma vəzifələrindən irəli gələn tədbirlər görüb, normativ hüquqi aktlarını və ya təkliflərinin olmadığı barədə məlumatı Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinə təqdim etsinlər və icra vəziyyəti tələb etdikdə, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat versinlər.

3. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların Fərmana uyğunlaşdırılmasını təmin edib, bu barədə iki ay müddətində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi (bundan sonra - Nazirlik):

4.1. Naxçıvan Muxtar Respublikası Dövlət Su Ehtiyatları Agentliyinin ləğv edilməsi ilə əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş məsələlərin həlli məqsədilə Nazirliyin, Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin və Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsinin nümayəndələrindən ibarət Ləğvetmə Komissiyası yaratsın və ləğvetmə prosesinin

Azərbaycan Respublikası Mülki Məcəlləsinin tələblərinə uyğun həyata keçirilməsi və qısa müddət ərzində başa çatdırılması üçün Ləğvetmə Komissiyasının fəaliyyətini nəzarətdə saxlasın;

4.2. Ləğvetmə prosesinin nəticəsi barədə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat təqdim etsin.

5. Bu Sərəncamın icrası Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının Qanunvericliyin və proqramların icrasına nəzarət şöbəsinə həvalə edilsin.

6. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Ceyhun Cəlilov**

Naxçıvan şəhəri, "14" fevral 2025-ci il

№ 16s